# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 15 (1698) 17 sentyabr 2019 - cu il Qiyməti 50 qəpik


# Prezident İlham Əliyev Türkiyənin Vitse-prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək əməkdaşlığımızın bütün sahələri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev yüksək səviyyəli siyasi əlaqələrə uyğun olaraq iqtisadi əməkdaşlığımızın da hərtərəfli inkişaf etdiyini dedi. Azərbaycan-Türkiyə tərəfdaşlığının son illərdə daha da möhkəmləndiyini bildirən dövlətimizin başçısı ölkələrimizin həyata keçirdiyi birgə irimiqyaslı layihələrin, xüsusilə, enerji sahəsi ilə bağlı layihələrin bölgə üçün böyük önəm daşıdığını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanda Türkiyənin xeyli sayda orta və kiçik müəssisələrinin fəaliyyətinin də iqtisadi əməkdaşlığın genişlənməsi işinə töhfə verdiyini dedi və ticarət dövriyyəsinin 20 faizdən çox artaraq 3 milyard dollardan çox həcmə çatmasından məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı hökumətlərarası komissiyanın Bakıda keçirilən iclasının səmərəli nəticələr verəcəyinə əminliyini ifadə etdi və Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın ölkəmizə səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyini dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Vitse-prezident Fuat Oktay, ilk növbədə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, ölkələrimizin dövlət başçıları arasında olan dostluq münasibətlərinin əlaqələrimizin inkişafındakı rolunu xüsusi qeyd etdi. Vitse-prezident Fuat Oktay Bakının işğaldan azad edilməsinin 101-ci ildönümü münasibətilə təbriklərini çatdırdı və paytaxtımızın daha da gözəlləşdiyini qeyd edərək Azərbaycanın bundan sonra da inkişaf yolunda olacağına əminliyini ifadə etdi.

Türkiyə vətəndaşlarına münasibətdə viza rəsmiləşdirilməsi tələbinin aradan qaldırılmasına görə təşəkkürünü ifadə edən qonaq bunun iki ölkə arasında turizm və biznes sahəsində əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyini bildirdi.

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay Türkiyənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı ilə əlaqədar qəti və birmənalı mövqeyinin olduğunu xatırladaraq, bu mövqeyin bütün beynəlxalq səviyyələrdə davamlı olaraq ifadə edildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

## BU SAYIMIZDA




### ATU-da «Bilik Günü» qeyd olundu 2

### ATU-da XVIII Beynəlxalq Avrasiya Cərrahlar və Qastroenteroloqlar konqresi keçirilib 2





### Azərbaycan Tibb Universitetinin professoru Lalə Allahverdiyeva beynəlxalq mükafata layiq görülüb 3

### Fakültə dekanlıqlarının nümayəndələri I kurs tələbələrilə görüşüblər 5

### Çin Elmlər Akademiyası ATU ilə əməkdaşlıq etmək niyyətindədir 4




# ATU-da «Bilik Günü» qeyd olundu

**◆ Respublikamızın bütün ümumtəhsil, orta ixtisas və ali məktəblərində artıq bir ənənəyə çevrilən yeni dərs ilinin ilk günü– “Bilik günü” ümumxalq bayramı kimi qeyd olunur. Bu münasibətlə ölkəmizdə ən qabaqcıl ali təhsil müəssisələrindən biri sayılan Azərbaycan Tibb Universitetində də geniş toplantı keçirilib.**



Toplantını giriş nitqi ilə açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu il tələbə adını qazananları və doğma kollektivi yeni tədris ilinin başlanması münasibətilə təbrik edərək onlara tədris müddətində uğurlar arzulayıb. Rektor 2019/2020-ci tədris ilində ölkə üzrə Prezident təqaüdçülərinin sayına görə Azərbaycan Tibb Universitetinin həmişə olduğu kimi yenə də öz reytinqini qoruyub saxladığını və bu il də birinci yerdə olduğunu xüsusi vurğulayıb. Bu faktı ATU-nun nüfuzunun göstəricisi kimi qiymətləndirib.

Professor G.Gəraybəyli çıxışında qeyd edib ki, ATU-da hər bir tələbəyə xüsusi qayğı ilə yanaşılır, universitetdə müəllimlər və tələbələr arasında səmimi münasibət mövcuddur: “Siz imtahanları uğurla verib ölkəmizin ən nüfuzlu ali məktəbləri sırasında öz yeri olan Azərbaycan Tibb Universitetinin tələbəsi adına layiq görülmüsünüz. Universitetimizin görkəmli alimləri, tanınmış müəllimləri sizə bu sənətin çətin, lakin şərəfli yollarını öyrədəcəklər. Mən inanıram ki, indi burada əyləşən gənclərimiz də gələcəkdə o tanınmış mütəxəssislər sırasında olacaqlar. Təbii ki, bu illər ərzində hər birinizin həyatı universitetlə bağlı olacaq. Bu illər hər birinizin yaddaşında dərin iz qoyacaq. Bu gün sizin üçün həm fərəhli, həm də sevincli bir gündür. Bir daha sizə tələbəlik həyatınızda uğurlar diləyir, ailənizə isə mehribançılıq və cansağlığı arzulayıram!”

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva da “Bilik günü” münasibəti ilə müəllim və tələbələri təbrik edib: “Həyatınızın ən uğurlu seçimini etmisiniz. Əldə etdiyiniz bu nailiyyətlə həm bizi, həm də ailənizi sevindirmisiniz. İnsan həyatının keçid nöqtəsi - sənət seçimidir. Siz artıq bu addımı atmısınız. Həkimlik çox ağır və məsuliyyətli peşədir. Hazırda bizim universitetdə tədrisin yüksək səviyyədə aparılması üçün bütün lazım olan yeni müasir avadanlıqlar və savadlı müəllimlər var. Pedaqoqla yanaşı, siz özünüz də oxumağı həqiqətən istəməlisiniz. Çünki sizlər həkim olub, kimlərinsə həyatını xilas edəcəksiniz”.

O, tələbə sıralarına yenicə qəbul olunanlara bu peşənin məsuliyyətini dərk edərək əzmlə çalışmağı məsləhət görüb. Gənclərə tövsiyə edib ki, əsil vətəndaş olmaq üçün təkcə savad azdır, həm də milli-mədəni sərvətlərimizi qoruyub saxlamalı və gələcək nəsillərə ötürməliyik.

Sözünə davam edən M.Vəliyeva çıxışında dövlətimizin iqtisadi inkişafından, tibb sahəsində kadr potensialının hazırlanması istiqamətində qazanılan nailiyyətlərdən söhbət açıb. Tibb sahəsinin, səhiyyə sisteminin ölkədə irəlidə gedən bir sahəyə çevrildiyini vurğulayıb. O, Tibb Universitetinin ölkəmizdə və xaricdə böyük nüfuza malik olduğunu, bu təhsil müəssisəsinin xalqımıza yalnız bacaraqlı tibbi kadrlar deyil, həm də görkəmli şəxsiyyətlər bəxş etdiyini dilə gətirib. O, qeyd edib ki, bu gün məzunlarımızın sorağı dünyanın inkişaf etmiş ölkələrindən gəlir. Sevindirici haldır ki, tibb sahəsi bütün dünyada olduğu kimi, Azərbaycanda da daim inkişafdadır.”

Yüksək balla ATU-nun tələbəsi adını qazanan Prezident təqaüdçüsü Təhmin Muradov çıxışında söz verdi ki, daim bu ali təhsil ocağının adını uca tutacaq və sevimli müəllimlərinin etimadını hər zaman doğruldacaq.

Tədbiri yekunlaşdıran professor Gəray Gəraybəyli Azərbaycan təhsili və səhiyyəsinin infrastrukturunda köklü islahatlar aparıldığını önə çəkərək bildirib ki, bütün bu irəliləyişlərin kökündə Azərbaycanın daim artan iqtisadi gücü dayanır. Bütün sahələrdə gedən dinamik inkişaf isə ulu öndər Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan və cənab Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi iqtisadi siyasətin təntənəsinin göstəricisidir.

Yeni dərs ilinin başlaması münasibətilə əməkdaşları və tələbələri bir daha təbrik edən professor G.Gəraybəyli qeyd edib ki, qarşıdan Azərbaycan Tibb Universitetinin 90 illik yubileyi gəlir. Bütün universitet ictimaiyyətinin, o cümlədən də tələbələrin bu şanlı yubileyə hazırlaşdığını bildirən rektor bundan sonra da ATU-nun yeni uğurlara imza atacağına inamını ifadə edib.



Sonda ATU–nun rektoru, professor Gəray Gəraybəyli tərəfindən bu il qəbul imtahanında ən yüksək nəticə göstərən 3 gəncə - Təhmin Muradov (694, 6 bal), Məhəmməd Ağamalıyev (694,3 bal), Samilə Qədəşovaya (693 bal) notebook hədiyyə olunub.

Tədbirdə Tibb Universitetinin rəhbərliyi, professor-müəllim heyəti və tələbələr iştirak edirdilər.

Qeyd edək ki, 2019-2020-ci tədris ilində 770 nəfər ATU-nun tələbəsi adını qazanıb. Bunlardan 483 nəfəri müalicə-profilaktika fakültəsinə (441 nəfər Azərbaycan, 42 nəfər rus bölməsi), 49 nəfəri ictimai səhiyyə fakültəsinə (35 nəfər Azərbaycan, 14 nəfər rus bölməsinə), 68 nəfəri Stomatologiya fakültəsinə (55 nəfər Azərbaycan, 13 nəfər rus bölməsinə), 68 nəfəri Əczaçılıq fakültəsinə (54 nəfər Azərbaycan, 14 nəfər rus bölməsinə), 65 nəfər isə Hərbi həkim fakültəsinə qəbul olub.

Məlumat üçün bildirək ki, bu il ötən illə müqayisədə Azərbaycan Tibb Universitetinə qəbul olanların sayı artıb. Belə ki, keçən tədris ilində 715 nəfər ATU tələbəsi adını qazanmışdı.

Bununla yanaşı, Hərbi feldşer fakültəsinə də 24 nəfər qəbul olub. Bu il həm də 13 nəfər magistraturaya daxil olub. 2019/2020-cu tədris ilində hazırlıq şöbəsini 396 nəfər (keçən il - 576) xarici ölkə vətəndaşı müvəffəqiyyətlə başa vurub.

**Mənsur Ələkbərli**

# ATU-da XVIII Beynəlxalq Avrasiya Cərrahlar və Qastroenteroloqlar konqresi keçirilib

**◆ Sentyabrın 11-dən 14-dək Azərbaycan Tibb Universitetində XVIII Beynəlxalq Avrasiya Cərrahlar və Qastroenteroloqlar konqresi keçirilib. Tədbir Azərbaycan Cərrah və Qastroenteroloqlar Cəmiyyətinin mərhum sədri, akademik Böyükkişi Ağayevin əziz xatirəsinə həsr olunub.**



Cərrah və Qastroenteroloqların Beynəlxalq Avrasiya Elmi Cəmiyyətinə üzv olan 25 ölkədən 160 elm xadimi və tibb mütəxəssisinin, eləcə də ölkəmizin tibb ictimaiyyətinin nümayəndələrinin iştirak etdikləri tədbirdə səhiyyə nazirinin müavini Elsevər Ağayev Səhiyyə naziri Oqtay Şirəliyevin konqres iştirakçılarına ünvanladığı təbrik məktubunu oxuyub. Nazir müavini çıxışında son 15 ildə Azərbaycanın səhiyyə sahəsində qazandığı uğurlardan danışıb.

Tədbirdə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli bildirib ki, bir çox beynəlxalq əhəmiyyətli tədbirlərin ölkəmizdə keçirilməsi artıq ənənə halını alıb. Bu, Azərbaycanın bütün sahələrdə, o cümlədən səhiyyədə əldə etdiyi uğurlarla bağlıdır.

Diqqətə çatdırılıb ki, sentyabrın 14-dək davam edəcək bu beynəlxalq tədbirdə cərrahiyyə və qastroenterologiya sahələrində yeniliklərə bağlı məruzələr dinləniləcək və müzakirələr aparılacaq. Bu isə ölkələr arasında elmin qarşılıqlı tanınmasında və əlaqələrin qurulmasında böyük əhəmiyyət daşıyır.

Açılış nitqlərindən sonra Azərbaycan Respublikasının Dövlət Himni ilə tədbir açıq elan edilib.

Daha sonra çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov bildirib ki, bu gün Azərbaycan mühüm konfrans, forumların mərkəzinə çevrilib: “Bu konqres ölkəmizin səhiyyə ictimaiyyəti adına çox mühüm hadisədir. Burada dünyada tanınmış mütəxəssislər iştirak edir. Bu konqreslərin keçirilməsində akademik Böyükkişi Ağayevin böyük rolu var. Şahidiyəm ki, o bu cür mürəkkəb məsələlərə necə ciddi yanaşırdı. Təəssüflər olsun ki, bugünkü konqresi Böyükkişi Ağayevsiz keçiririk. Bu konqresin də onun xatirəsinə həsr olunması onun ən böyük haqqıdır’.



Daha sonra Cərrah və Qastroenteroloqların Beynəlxalq Avrasiya Elmi Cəmiyyətinin sədri, professor Hasan Özkan çıxış edərək dost və qardaş Azərbaycana xüsusi önəm verdiklərini diqqətə çatdırıb. Qeyd edib ki, Cərrah və Qastroenteroloqların Beynəlxalq Avrasiya Elmi Cəmiyyətinin indiyədək 17 konqresi keçirilib. Bu beynəlxalq tədbirlərin 7-nə Azərbaycan ev sahibliyi edib.

H.Özkan məlumat verib ki, rəhbərlik etdiyi cəmiyyətin əsası 1996-cı ildə Antalyada Avropa və Asiyanın türkdilli dövlətlərindən olan alimlərinin milli konqresindəki görüşü zamanı qoyulub. Cərrah və qastroenteroloqların ilk konqresi 1997-ci ildə Bakıda keçirilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dəstəyi ilə keçirilən həmin konqresdə 5 ölkədən 35-ə yaxın alim iştirak edib.

Konqresə sədrlik edən Azərbaycan Cərrah Qostroentoloqlar İctimai Birliyinin rəhbəri, professor Rauf Ağayev çıxış edərək, bugünkü XVIII Beynəlxalq Avrasiya Cərrahlar və Qastroenteroloqlar Konqresinin əsas məqsədinin dünyada bu sahədə çalışan mütəxəssislərin yeni nailiyyətlər barədə apardıqları fikir mübadiləsinin praktikalarına tətbiq edilməsinə nail olmaq olduğunu bildirib.

R.Ağayev vurğulayıb ki, konqresdə qaraciyər transplantasiyasına aid olan böyük çıxış olacaq: ‘Avstraliya, Amerika və Türkiyədən gələn mütəxəssislər öz təcrübələri haqqında danışacaqlar. Eyni zamanda dünyada ən aktual problemlərdən olan hepatit virusu, ürək-damar cərrahiyyəsi barədə də çıxışlar nəzərdə tutulub’.

Tədbirdə Böyükkişi Ağayevin həyat və fəaliyyətdən bəhs edən videoçarx nümayiş etdirilib.

Sonra Cərrah və Qastroenteroloqların Beynəlxalq Avrasiya Elmi Cəmiyyətinin XVIII Beynəlxalq konqresi işini sessiyalarda davam etdirib.Sessiyalarda cərrahiyə və qastroenterologiya sahəsindəki son vəziyyət, mövcud problemlər və yeniliklər barədə müzakirələr aparılıb.

**ATU-nun mətbuat xidməti**

# Konqres öz işini ürək-damar cərrahiyyəsinə həsr olunmuş konfransla davam etdirib

**Sentyabrın 11-də Azərbaycan Tibb Universitetində öz işinə başlayan XVIII Beynəlxalq Avrasiya Cərrahlar və Qastroenteroloqlar konqresi bölmə iclasları ilə davam edib.**



Sentyabrın 12-də konqresin davamı olaraq ATU-nun Tədris Cərrahiyyə Klinikasında ürək-damar cərrahiyyəsinə həsr edilmiş konfrans keçirilib. Konfransı Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin sədri, professor Kamran Musayev açaraq həmkarlarımıza göstərmək fürsəti verdiyini vurğulayan tanınmış ürək cərrahı ölkə cərrahiyyəsində özünəməxsus yer tutan, avanqard rol oynayan akademik Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin həm böyüklərdə, həm də uşaqlarda ürək



ilk növbədə həmkarlarına və bütün iştirakçılara tədbirə qatıldıqlarına görə minnətdarlığını bildirib. Avrasiya Beynəlxalq Cərrahiyyə Konqresinin artıq bir ənənəyə çevrildiyini deyən K.Musayev ildən-ilə bu konqresə qatılan ölkələrin, qonaqların sayının artığını diqqətə çatdırıb: “Bu dəfə ölkəmizdə keçirilən Avrasiya Beynəlxalq Konqresində 25-ə yaxın ölkədən 150-dən çox qonaq iştirak edir. Mən bu münasibətlə başda professor Rauf Ağayev olmaqla konqresin təşkilatçılarını təbrik edirəm və onlara uğurlar arzulayıram. Bu cür beynəlxalq konqreslərin ölkəmizdə təşkil olunması iki cəhətdən çox vacibdir. Birincisi, bizim dünyada olan inkişafdan, irəliləyişlərdən xəbərdar olmağımız üçün bu cür toplantılarda iştirakımız vacibdir. İkincisi isə, bu cür toplantıların keçirilməsi ölkəmizdə səhiyyənin inkişafının bir göstəricisidir”.

Bu cür beynəlxalq toplantıların bölgəmizdəki, o cümlədən səhiyyəmizdəki inkişafı xarici cərrahiyyəsini çox uğurla davam etdirdiyini, bundan sonra da həm elmi, həm praktiki fəaliyyətlərində yeni-yeni nailiyyətlərə imza atacaqlarını söyləyib. O, cərrahiyyə və qastroenterologiya ağırlıqlı bir beynəlxalq konqresdə tam bir günü ürək-damar cərrahiyyəsinə ayırdıqlarına görə proqramın təşkilatçılarına da təşəkkür edib.

Bundan sonra Rusiya Federasiyasından doktor A.Maqemedov “Dağıstan Respublikasında ürək-damar cərrahiyyəsinin qurulması”, Azərbaycandan professor K.Musayev “Aortal qapağın tam rekonstruksiyası” mövzusunda məruzələrlə çıxış ediblər. Digər yerli və xarici mütəxəssislərin ürək-damar cərrahiyyəsinin aktual problemlərinə dair məruzələri də maraqla qarşılanıb. Mütəxəssislər konfrans iştirakçılarının ayrı-ayrı mövzularla əlaqədar çoxsaylı suallarını da cavablandırıblar.

**Qabil ABDULLAYEV**

# Beynəlxalq konqresdə Plastik və Rekonstruktiv Cərrahiyyə sessiyası keçirilib

**◆ Azərbaycan Tibb Universitetində keçirilən XVIII Beynəlxalq Avrasiya Cərrahlar və Qastroentroloqlar konqresi çərçivəsində Plastik və Rekonstruktiv Cərrahiyyə sessiyası da baş tutub.**



Sentyabrın 12-də keçirilən sessiyada yerli və xarici mütəxəssislər iştirak ediblər. Tədbirdə səhiyyə sahəsi üzrə aktuallıq kəsb edən 25 mövzu barəsində çıxışlar olub və müzakirələr aparılıb.

Azərbaycan Plastik Cərrahlar İctimai Birliyinin sədri, professor Vaqif Qələndərli açılış nitqində ATU-nun bu cür beynəlxalq tədbirlərə ev sahibliyi etməsinin artıq ənənə halını aldığını bildirib. Qeyd edib ki, dünyanın qabaqcıl mütəxəssislərinin nəzəri və praktik təcrübələrini bu cür tədbirlərdə paylaşması ölkəmizdə səhiyyənin inkişafının bariz nümunəsidir. Açılışdan sonra konfrans öz işini davam etdirib. Sessiya boyunca maraqlı mühazirələr səslənib, mövzularla bağlı müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

**❍ Malayziyada fəaliyyət göstərən İƏT Beynəlxalq Biznes Mərkəzi tərəfindən təşkil olunmuş IX “Muslim World Biz 2019” sərgi və konfransı çərçivəsində II “Rania” mükafatlandırma mərasimi keçirilib.**

# Azərbaycan Tibb Universitetinin professoru Lalə Allahverdiyeva beynəlxalq mükafata layiq görülüb



Mərasim zamanı müxtəlif nominasiyalar üzrə  nəzərdə tutulan builki mükafatlar 7 ölkəni - Malayziya, Azərbaycan, Qətər, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, İran və Hindistanı təmsil edən 12 xanıma verilib. Mükafatlandırılanlar arasında Azərbaycan qadınlarından ilk dəfə bu mükafata Azərbaycan Tibb Universitetinin Allerqologiya və İmmunologiya kafedrasının müdiri, Azərbaycan Respublikasının əməkdar həkimi, Avropa Allerqoloq və Klinik İmmunoloqlar Akademiyasının üzvü, Avropa Respirator Cəmiyyətinin qızıl üzvü, Dünya Allerqoloqlar Təşkilatının üzvü, Kanada İmmunoloqlar Cəmiyyətinin üzvü, tibb elmləri doktoru, professor Lalə Allahverdiyeva layiq görülüb. Təntənəli təqdimetmə mərasimində əvvəlcə professor Lalə Allahverdiyevanın elmi fəaliyyəti ilə bağlı videoçarx nümayiş etdirilib. Qeyd olunub ki, tibb elmləri doktoru, professor L.Allahverdiyeva allerqologiya və immunologiya sahələri üzrə bir sıra nailiyyətlərə imza atıb. Onun elmi fəaliyyəti yalnız Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da yüksək qiymətləndirilib.

Mükafatlandırma mərasimində mükafatı professor Lalə Allahverdiyevaya Birləşmiş Ərəb Əmirliyi nümayəndəsi, Şahzadə Şeyx Hint Bint Əbdüləziz təqdim edib.

Təqdimat mərasimindən sonra professor Lalə Allahverdiyeva yerli media nümayəndələrinə müsahibə verib. Qadınların cəmiyyətdə rolu barədə danışan professor Şərqdə ilk dəfə qadına seçki hüququ verən ölkə olaraq Azərbaycanda bu gün qadınların bütün sahələrdə fəal təmsil olunduqlarını və uğur qazandıqlarını bildirib. L.Allahverdiyeva “Muslim World Rania Award 2019” mükafatı ilə təltif edilməsinə görə İƏT Beynəlxalq Biznes Mərkəzinə minnətdarlığını bildirib.

Qeyd edək ki, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) 60-a yaxın müsəlman ölkəsini özündə birləşdirən və Birləşmiş Millətlər Təşkilatı (BMT) kimi dünyanın ən mötəbər və nüfuzlu beynəlxalq təşkilatları sırasında ikinci yer alan dünyamiqyaslı təşkilatdır.

“Rania” mükafatı İslam həmrəyliyinin möhkəmləndirilməsinə, o cümlədən elm, təhsil, mədəniyyət, sosial, iqtisadi və başqa sahələrə töhfələrini verən və ictimai xidmətləri ilə seçilən İƏT-in üzvü olan ölkələri təmsil edən xanımlara verilir. Bu məqsədlə təşkilat hər il adıçəkilən sahələrin inkişafına töhfələrini verən və xüsusi xidmətləri ilə seçilən qabaqcıl xanımları mükafatlandırır. Onların arasında ATU-nun professorunun olması bizi qürurlandırır.

# REKTORUN QƏBULUNA QEYDİYYAT ONLAYN ŞƏKİLDƏ APARILIR

**❍ Artıq Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin qəbuluna qeydiyyat yalnız onlayn qaydada aparılacaq.**

Rektorun qəbuluna yazılmaq üçün ATU-nun rəsmi saytının əsas səhifəsində “Rektorun qəbulunun onlayn qeydiyyatı” bölməsindən və ya aşağıdakı linkdən istifadə etmək olar:

http://www.amu.edu.az/az/pages/5617...

Qeyd edək ki, ATU rektoru, professor Gəray Gəraybəylinin qəbulu həftənin 1-ci və 4-cü günləri saat 15:00-17:00 arasında aparılır. Həmin günlər yalnız 14.00-dək onlayn qaydada qəbula yazılmaq mümkündür.




Yerdə qalan günlərdə isə istənilən vaxt qeydiyyatdan keçmək olar.

Qeydiyyat zamanı tələbələr, ATU əməkdaşları və vətəndaşlar özlərinə aid bölməni seçib zəruri məlumatları daxil etməlidir.

# Madrid şəhərində 24–cü Dünya Bariatrik-metabolik cərrahlar konqresi keçirilib

**Ölkəmizi bu tədbirdə Azərbaycan Bariatrik-Metabolik Cərrahlar Assosiasiyasının sədri, ATU-nun I cərrahi xəstəliklər kafedrasının əməkdaşı, t.ü.f.d. Taryel Ömərov təmsil edib.**

Sentyabrın 3–dən 7–dək İspaniyanın paytaxtı Madrid şəhərində keçirilən 24–cü Dünya Bariatrik–Metabolik cərrahlar konqresində ( 24 th WORLD KONGRES IFSO – International Federation for the Surgery of Obesity and Metabolic Disorders) 67 ölkədən 3 mindən çox mütəxəssis iştirak edib.

Piylənmənin və metabolik xəstəliklərin cərrahi müalicəsindən bəhs edən bu konqresdə Bariatrik–Metabolik cərrahiyyə sahəsində 250–dən çox mütəxəssis çıxış edib.

Təmsilçimiz Taryel Ömərovun Baraitrik–Metabolik cərrahiyyə metodlarından ən çox tətbiq edilən mədənin boylama rezeksiyası (Sleeve gatsrectomy) əməliyyatının modifikasiyasından bəhs edən “DOES OMENTOPEXY PLAY A ROLE İN PREVENTİNG COMPLİCATİONS DURİNG SLEEVE GASTRECTOMY PROCEDURE?” adlı çıxışı maraqla qarşılanıb.




**ATU-nun mətbuat xidməti**

# Çin Elmlər Akademiyası ATU ilə əməkdaşlıq etmək niyyətindədir

**◆ Çin Xalq Respublikasının Elmlər Akademiyasının nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində Azərbaycan Tibb Universitetində qonaq olub. Çin Elmlər Akademiyasının Fizika-Kimya Texniki İnstitutunun direktor müavini, Çin Elmlər Akademiyasının Dərman araşdırılması və inkişafı mərkəzinin direktoru Haji Akbar Aisanın başçılıq etdiyi nümayəndə heyəti ilə ATU rəhbərliyi arasında görüş keçirilib.**



ATU-nun müalicə və tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev görüşdə ölkəmizin tarixi, sosial-iqtisadi durumu, təhsillə bağlı həyata keçirilən islahatlar və digər önəmli məsələlər haqqında qonaqlara məlumat verib. Tanışlıq xarakteri daşıyan görüş zamanı həmçinin Tibb Universitetinin yaradılması, fəaliyyəti, mövcud tədris və təhsil sistemi, beynəlxalq əlaqələri barədə ətraflı bilgi çinli alimlərin diqqətinə çatdırılıb. Qeyd edilib ki, 8 minə yaxın tələbəsi olan ATU-da 3 dildə tədris aparılır. Burada 25 ölkədən tələbə təhsil alır. 1300-dən çox pedaqoji kadrı olan bu ali tibb müəssisəsində 60 elmlər doktoru, 850 elmlər namizədi, 120 professor və 324 dosent çalışır.

ÇXR Elmlər Akademiyasının Vitse-Prezidenti, Fizika İnstitutunun direktoru cənab Enge qeyd edib ki, səfərin məqsədi təcrübə mübadiləsi aparmaq, həmçinin birgə layihələrin reallaşdırılması imkanlarını araşdırmaqdır. Professor Enge məlumat verib ki, yaxın vaxtlarda Çin Elmlər Akademiyasının Fizika İnstitutunun nəzdində əczaçılıq mərkəzi yaradılıb. O, bu mərkəzin işinin təkmilləşdirilməsi, fəaliyyətinin daha səmərəli qurulması üçün ATU ilə əməkdaşlığın təməlinin qoyulmasının tərəfdarı olduğunu bildirib. Azərbaycanın müalicəvi bitkilərlə zəngin olduğunu nəzərə alaraq, ATU ilə əməkdaşlığın böyük fayda verəcəyindən əmin olduğunu söyləyib.

Hər iki tərəf üçün faydalı olan görüşdə birgə əməkdaşlığın ilkin konturları müəyyənləşdirilib və birgə sazişin imzalanması ilə bağlı razılıq əldə olunub.

Məlumat üçün bildirək ki, Çin Elmlər Akademiyasının nümayəndə heyətinin üzvlərindən biri - Sinzyan Fizika və Kimya Texniki İnstitutunun direktor müavini Haji Akber Aisa artıq 20 ilə yaxındır ki, Özbəkistanın elmi mərkəzləri ilə əməkdaşlıq edir.

Görüşdə ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, rektorun müşaviri, dosent Zülfüqar Musabəyov, Ümumi və toksikoloji kimya kafedrasının müdiri, professor Eldar Qarayev iştirak edirdi.

# ATU Prezident təqaüdçülərinin sayına görə universitetlər arasında birinci oldu

**Azərbaycan universitetlərinin yeni Prezident təqaüdçüləri bəlli olub. Bu il ümumilikdə 102 nəfər Prezident təqaüdünə layiq görülüb.**

Onlardan 25 nəfəri Azərbaycan Tibb Universitetinin tələbəsidir. Beləliklə, bu il də ATU Prezident təqaüdçülərinin sayına görə ölkə universitetləri arasında liderlik edir.

Qeyd edək ki, Bakı Ali Neft Məktəbi bu sıralamada 23 nəfərlə 2-ci, UNEC isə 21 nəfərlə ölkə 3-cüsü olub.

2019/2020-ci tədris ilində Azərbaycan Tibb Universitetinə daxil olmuş Prezident təqaüdçülərinin siyahısı:

**I Müalicə-profilaktika fakütəsi üzrə**

Əhmədov Nadir Nizami - 688.9
Bayramlı Turan Sübhan - 682.5
Sadıxova Samirə Araz - 681.2
Məmmədova Sevinc İsmayıl - 680.2
Yusifli Murad Elşən - 679.5
Hüseynova Dilarə Səbuhi - 679.2
Cəfərli Əli Gündüz - 678.3
Məmmədov Ayhan Arzu - 675.4
Musayeva Arzu Qalib - 674.7
Əlizadə Vüsal Orucəli - 674.2
Əliyeva Əsmər Bəhruz - 673.1
Əliyeva Firuzə Fuad - 673.0
Abiyeva Nəzrin Vüqar - 672.9

**II Müalicə-profilaktika fakültəsi üzrə**

Muradov Təhmin Hidayət - 694.6
Ağamalıyev Məhəmməd Niyaməddin - 694.3
Qədəşova Samilə Xalidşah - 693.0
Alpaşayev Rəşad Kazım - 688.6
Əhmədli Fərid əhməd - 686.2
Səfərzadə Qızbəs Tanrıverdi - 684.0
Babazadə Sadə Vüqar - 681.0
Ağamalıyev Əli Niyaməddin - 676.6
Quluzadə Fidan Ülfət - 676.6
Qurbanov Nicat Hicran - 676.2
Hacıyeva Fidan İlfan - 675.0
Axundzadə Rəvan Qədir - 673.4

# Təbrik edirik!

**Şəkildə gördüyünüz bu xanım Fidan Zeynallıdır.**

O, bu il 147 saylı liseydən məzun olaraq həm I, həm də IV qrup üzrə qəbul imtahanlarında iştirak edib və hər iki qrupdan eyni - 663 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasını seçib.



# ATU-nun Tədris Cərrahiyyə Klinikası hesabat verdi

## Klinikada yatan xəstələrin və cərrahiyyə əməliyyatlarının sayı artıb

**◆ Sentyabrın 10- da Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə klinikasında yay ayları üzrə hesabat konfransı keçirilib.**



Toplantıda çıxış edən klinikanın direktoru, professor Surxay Hadıyev kafedra və şöbə müdirlərinə yeni tədris ilində uğurlar diləməklə yanaşı, onları daha aktiv olmağı tövsiyə edib: "Digərlərindən fərqli olaraq, Tədris Cərrahiyyə Klinikasında həm tədris, həm də müalicə işi aparılır. Tədris bizim işimizin çox həssas hissəsidir - verdiyimiz təhsil gələcək həkimlərimizin peşəkarlığını təmin edir. Ona görə də tələbələrin daha çox praktikaya cəlb olunması, əməliyyatalara salınması vacibdir".

S.Hadıyev klinikada müalicə üzrə fəaliyyətin gücləndirilməsi üçün burada çalışan tanınmış alimləri, peşəkar həkimləri daha fəal olmağa, səhiyyədə mövcud yeniliklərin klinikada tətbiqinə çağırıb.

TCK-nın baş həkimi, professor Ramiz Poluxov klinikanın yay ayları üzrə əldə etdiyi nailiyyətləri açıqlayıb. Klinikanın iç həyati haqqında məlumat verərək burada ümumilikdə 54 klinika həkimi, 114 orta tibb işçisi, 120 kiçik tibb işçisinin fəaliyyət göstərdiyini bildirib: "Klinikada 14 kafedra, 29 şöbə, 405 çarpayı var. 2018-2019-cu illərin müqaviləsi 8 aylıq ümumi hesabatına əsasən, 2018-ci il üçün ümumi xəstə sayı 69790 idisə, 2019-cu il üçün isə bu say 97665 nəfərədək yüksəlib. Əməliyyat sayı 5886-dan 8792-ə qədər artıb. Stasionarda yatan xəstə sayı 5392-dən 9930-dək artıb. Poliklinik xidmətlərdə isə bu say 76.867-dən 202.081-ə qədər qalxıb".

Baş həkim R.Poluxov bu nəticələrin həm həkim kollektivinin işinin gücləndirilməsindən, həm də sığorta şirkətləri və fond ilə ortaq fəaliyyətdən qaynaqlandığını vurğulayıb. Baş həkim şöbələr üzrə aparılan əməliyyat sayları, ağır əməliyyatlar haqqında da geniş məlumat verib.

Daha sonra TCK-nın elmi işlər üzrə direktor müavini, professor Davud Pənahov toplantı iştirakçılarını klinikanın tədris ilinin başlanğıcı üçün aparılan hazırlıq işlərilə tanış edib. Qeyd olunub ki, cari tədris ilininin payız semestrində bütün kafedralar üzrə 125 birləşmə və 340 qrupda davam etdiriləcək. Qruplarda dərslərin əsasən Azərbaycan dilində, həmçinin ingilis və rus dillərində tədris edilməsi nəzərdə tutulur: "Klinikamız mühazirələr üçün 7 auditoriya, təcrübə məşğələləri üçün isə 55 dərs otağı ( 23 pb) ilə təchiz olunub. Bunlarla yanaşı, əməkdaşlar



üçün nəzərdə tutulan 50 otaq lazım olan vasitələrlə təchiz olunub və burada da təcrübə məşğələlərinin keçirilməsi nəzərdə tutulur. Daha 6 yeni tədris otağı inşa olunub. Yay tətilində dərs otaqlarının əksəriyyətində cari təmir işləri aparılıb. Dərs otaqlarının 27-də müasir TV-monitor quraşdırılıb".

D.Pənahov Tədris Treninq Mərkəzində bacarıqların icrası üçün nəzərdə tutulmuş otaqların müvafiq ləvazimatlarla təmin olunduğunu, rezidentlərin fəaliyyəti haqqında da geniş məlumat verib.

Sonda ATU-nun müalicə və tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev toplantı iştirakçılarına müvafiq tövsüyələrini çatdırıb və onlara yeni tədris ilində uğurlar diləyib.

# Kaliforniya Universitetinin mütəxəssisi ATU-da

**Bu günlərdə Kaliforniya Universitetinin Diş həkimliyi məktəbinin Təcrübə qruplarının rəhbəri Dr. Mitra Simanian Azərbaycan Tibb Universitetində qonaq olub.**



İmplantologiya ve kosmetik stomatologiya üzrə mütəxəssis M.Simanian əsasən ATU-nun Tədris Stomatoloji Klinikasının fəaliyyəti ilə tanış olub.

Görüşdə ATU-nun Tədris Stomatoloji Klinikasının direktoru, professor Alqış Səfərov qonağa rəhbərlik etdiyi müəssisənin işi haqqında geniş məlumat verib. Qeyd edib ki, ATU-nun ilk klinikası olan Stomatoloji Klinika 138 kabinet və geniş monitorlarla təchiz olunmuş 3 mühazirə zalından ibarətdir. Stomatoloji Klinikada 6 kafedra və 9 şöbə fəlaiyyət göstərir.

A.Səfərov burada tələbələrin təhsili və praktik bilgilər əldə etməsi üçün yaradılan şəraitlə qonağı tanış edib: "Klinikada tələbələrin praktik işlərinin aparılması üçün geniş tədris-treyninq mərkəzi və fantom tədris kabinetləri yaradılıb. Tələbələr və rezidentlər rahatlıqla burada işləyirlər. Tələbələr müasir stomatoloji qurğularla təchiz edilmiş kabinetlərdə təcrübə dərsləri keçir və praktiki vərdişlər əldə edir, müxtəlif əməliyyatların yerinə yetirilməsində iştirak edirlər. Onlar stomatologiyada istifadə olunan ən son model ləvazimat və materiallardan istifadə edirlər".

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev universitetdə təhsil alan xarici tələbələr haqqında məlumat verib. Qeyd edib ki, xarici tələbə sayına görə Azərbaycan Tibb Universiteti ölkəmizdə liderdir: "Hazırda ATU-da 23 ölkədən 2 minə yaxın əcnəbi tələbə təhsil alır. Universitetimizdə Türkiyədən, İrandan, Gürcüstandan, İraqdan, Böyük Britaniyadan, Rusiyadan, Çindən və digər ölkələrdən tələbələr təhsil alırlar. Onların arasında qonşu ölkələrdən gələnlər üstünlük təşkil edir".

Kaliforniya Universitetinin Diş Həkimliyi Məktəbinin Təcrübə qruplarının rəhbəri Dr. Mitra Simanian qəbul üçün təşəkkürünü bildirib və ATU-nun Tədris Stomatoloji Klinikasında qonaq olmaqdan məmnunluğunu ifadə edib. Görüşdə ATU-nun Stomatologiya fakültəsinin dekanı, dosent Səid Əhmədov və Ortopedik stomatologiya kafedrasının müdiri, professor Nazim Pənahov da iştirak ediblər.

Görüşdən sonra qonaq ATU-nun Tədris Stomatoloji Klinikası ilə tanış olub, kabinetləri gəzib, tədris-treyninq mərkəzini ziyarət edib.

**ATU-nun mətbuat xidməti**

# Fakültə dekanlıqlarının nümayəndələri I kurs tələbələrilə görüşüblər

**Yeni tədris ilinin başlanması ilə əlaqədar Azərbaycan Tibb Universitetinin fakültə dekanlıqlarının nümayəndələri ali məktəbə yeni qəbul olunmuş tələbələr və onların valideynləri ilə silsilə görüşlər keçiriblər. Görüşlərə tələbə həyatının sevincini yaşayan gənclərin valideynləri də qatılıblar.**




I müalicə-profilaktika fakültəsi

Bu görüşlər sentyabrın 13-də Əczaçılıq, sentyabrın 14-də isə I və II Müalicə, İctimai səhiyyə, Stomatologiya fakültələrində baş tutub.

***

**I müalicə-profilaktika fakültəsinin** dekanı, dosent Elşad Novruzov I kurs tələbələrini ATU ailəsinə üzv olması münasibətilə təbrik edib. E.Novruzov xatırladıb ki, bu il ATU-ya qəbul olunanların 80 faizi dövlət hesabına oxuyacaq ki, bu da dövlətin tibb və təhsil sahəsində göstərdiyi qayğının nümunəsidir. Dekan E.Novruzov ATU-nun nəzdindəki klinikalar, yataqxanalar, idman kompleksi, kitabxana haqqında görüş iştirakçılarına geniş məlumat verib.

Dekan müavini Mahir Quliyev yeni tələbələri universitetin qaydaları, tədris sistemi, ali məktəbdə son illərdə aparılan islahatlarla tanış edib. ATU-nun I müalicə-profilaktika fakültəsinin tələbə dekanı Etibar Abbasov tələbələrin universitet rəhbərliyi ilə əlaqələrinin qurulması, məsələlərin rəhbər şəxslərlə müzakirəsinin təşkili barədə görüş iştirakçılarına məlumat verib.

ATU Tələbə Gənclər Təşkilatının sədri Rauf Vəliyev təşkilatın quruluşu, üzvlərinin sayı, üzvlük qaydaları haqqında məlumat verərək bildirib ki, hazırda ATU TGT-nin 3000 nəfərdən çox üzvü var və təşkilatın fakültə nümayəndələri, klub və departamentləri aktiv şəkildə fəaliyyət göstərir. Təşkilata üzv olmaq tamamilə ödənişsizdir və elektron formada aparılır.

I müalicə-profilaktika fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Cavid Mustafazadə təmsil etdiyi təşkilatın tələbələrin asudə vaxtının təşkili, intellektual səviyyəsinin artırılması istiqamətində gördüyü işlərdən, həyata keçirilən layihələrdən danışıb.

***




II müalicə-profilaktika fakültəsi

**II müalicə-profilaktika fakültəsinin** dekanı, dosent İsrail Məhərrəmbəyli də I kursa qəbul olmuş tələbələri və onların valideynlərini təbrik edərək ali tibb məktəbində təhsil alacaq gənclərə yeni tədris ilində uğurlar arzulayıb.

Sonra universitetin daxili qaydaları, nizam-intizam, imtahanların hansı qaydada aparılması və s. ilə bağlı ətraflı məlumat verib. Dekan, həmçinin universitetdə Boloniya təhsil sisteminin tətbiqi, bu sistemin üstünlüklərini və bu il universitetə daxil olan tələbələrin 80 faizinin dövlət hesabına təhsil alacağını diqqətə çatdırıb.

Tələbələrin ATU-da yüksək səviyyədə istər nəzəri, istərsə də praktik təhsil almaları üçün universitet rəhbərliyi tərəfindən hər cür şərait yaradıldığını, onların istifadəsində yataqxanaların, idman kompleksinin, klinikaların olduğunu qeyd edib.

Dekan müavini Sevinc Məhərrəmova da univerisitetdə son dövrlər aparılan islahatlardan və uğurlardan söhbət açıb.

Prezident təqaüdçülərini xüsusi təbrik edən dekan müavini tələbələrin biliklərə yiyələnməsi üçün hər il tədris sistemində yeniliklərin aparıldığını qeyd edib.

***




İctimai səhiyyə fakültəsi

**İctimai səhiyyə fakültəsinin** dekanı, professor Anar Ağayev ATU-ya yeni daxil olan tələbələri və tədbirə qatılan valideynləri təbrik edərək onların bu uğurunu yüksək qiymətləndirib. Xatırladıb ki, 10 minlərlə gənc universitetə hazırlaşır, amma onların içərisindən ən yüksək bal toplayanlar öz istəklərinə qovuşurlar. Sözünə davam edən dekan bildirib ki, bu tədris ilində fakültəyə 50 tələbə daxil olub ki, onlardan da bir nəfəri öz istəyi ilə Türkiyə Cümhuriyyətində təhsil alacaq.

İctimai səhiyyə fakültəsinin tibbi profilaktika ixtisasının əsas mahiyyəti haqqında da ətraflı məlumat verən dekan bildirib ki, bu sahə ictimaiyyətin sağlamlığını qoruyan və yaxud ona təsir göstərən bir sahədir: "Yəni bir var ayrı-ayrı fərdlərin sağlamlığının qorunması, bir də var kütləvi sağlamlığın qorunması. Bu nöqteyi-nəzərdən tibbi profilaktika ixtisasına qəbul olunan tələbələrimiz əhali arasında xəstəliklərin yaranma səbəbləri və mexanizmlərini, yayılmasının qanunauyğunluqlarını öyrənirlər. Onlar epidemioloq, metodist, səhiyyə idarəçiləri və həkim-laborant olurlar. Əhalinin sağlamlığının pozulmasının qarşısını alan, elmi cəhətdən əsaslandırılmış profilaktik tədbirlər sistemini işləyib hazırlayırlar. Bununla da insanların sağlamlığının qorunmasını, əmək qabiliyyətinin, həyat keyfiyyətinin yüksəldilməsini təmin edirlər".

Bu fakültədə təhsil alan tələbələrin həm də ictimai fəallıqları ilə fərqləndiyini vurğulayan A.Ağayev ixtisas seçimi ilə bağlı bəzən tələbələrdə və valideynlərdə narahatlıq yaradan məsələlərə də aydınlıq gətirib.

Fakültənin tədris məsləhətçisi Zümrüd Abaszadə tədris planı, imtahan prosesi, eləcə də universitetin nizam- intizam qaydaları ilə I kurs tələbələrini tanış edib.

Toplantıda iştirak edən fakültənin tələbə dekanı Fidan Həsənli və Fakültə Həmkarlar Təşkilatının sədri Ella Qocayeva tələbələri asudə vaxtlarını səmərəli keçirmək üçün universitetdə yaradılan yüksək şəraitdən maksimum istifadə etməyə və TEC-n konfranslarına qatılaraq fəallıq göstərməyə çağırıblar.

***




Stomatologiya fakültəsi

**Stomatologiya fakültəsinin** dekan müavini Kamran Babayev tələbələrə və tədbirə qatılan valideynlərə ATU-dakı tədris prosesi, imtahanlar, dərslərin aparılması, eləcə də nizam-intizam qaydaları haqqında ətraflı məlumat verib.

Mühazirələrdə tələbələrin aktivliyinin aşağı olmasının dərsin keyfiyyətinə mənfi təsir göstərdiyini vurğulayan dekan müavini bildirib ki, bu amil nəzərə alınıb və 2018-2019-cu tədris ilindən yeni qaydaların tətbiqinə başlanılıb. O, mühazirələrin 40 faizində iştirak etməyən tələbələrin sərbəst işləri və praktiki bacarıqları yerinə yetirmələrinə baxmayaraq imtahana buraxılmadıqlarını deyib. Həmçinin, I kurs tələbələrini fakültədə fəaliyyət göstərən kafedralar, ictimai təşkilatlarla da tanış edən K.Babayev səmimi bir kollektivə güvənərək seçdikləri ixtisası dərindən mənimsəmək üçün ciddi çalışan tələbələrin tibbi təhsildə də uğur qazanacaqlarına əminliyini söyləyib.

Sonra fakültənin dekani, dosent Səid Əhmədov çıxış edərək ATU-da, o cümlədən Stomatologiya fakültəsində şəffaflığın qorunduğunu xüsusi vurğulayıb. Tələbənin istənilən probleminin diqqətdə saxlanıldiğni bildirən dekan universitet rəhbərliyi və dekanlıq adından fakültətə təhsil almaq hüququ qazanan gəncləri, onların valideynlərini bir daha təbrik edib, uğurlar arzulayıb.

***




Əczaçılıq fakültəsi

**Əczaçılıq fakültəsinin** dekanı, dosent Kamandar Yaqubov tələbə adını qazanan gəncləri və onların valideynlərini Universitet rəhbərliyi və dekanlıq adından təbrik edib: "Əziz tələbələr! Sizin tələbə adını qazanmağınız Universitetimizin 90 illik yubileyinə təsadüf edir".

Azərbaycan Tibb Universitetinin tələbəsi olmaq sevincini yaşamağın kifayət qədər qürurverici olduğunu söyləyən fakültə dekanı bildirib ki, İmtahan Mərkəzinin keçirdiyi imtahandan sonra ən yüksək bal toplayan abituriyentlər bizim universiteti seçir: "Prezident Təqaüdçülərindən 25-26 nəfərin universitetimizi seçməsi və həmin tələbələrlə bağlı statistik təhlil də göstərir ki, bizim universitetimiz ali məktəblər arasında birinciliyini qoruyub saxlayır. Belə bir universitetdə təhsil almaq sözün əsl mənasında fərəh hissi doğurur. Daha çox sevinən də təbii ki, valideynlərdir. Bəzi valideynlər tələbə valideyni olmaq xoşbəxtliyini ilk dəfə, bəziləri isə təkrar olaraq yaşayır. Ona görə gələcək təhsilinizlə və işinizlə də valideynlərinizə, ölkəmizə başucalığı gətirməyinizi arzulayıram."

O, universitetdə təhsilin kredit sistemi ilə aparıldığını və bu sistemin tələblərini diqqətə çatdıraraq tələbə-müəllim münasibətlərinə də toxunub, tövsiyələrini verib.

Tələbələri Əczaçılıq fakültəsi barədə məlumatlandıran dekan K.Yaqubov yeni tələbə adını qazanmış gənclərə dərs keçəcəkləri korpusların yerini, ATU-dakı dərs, imtahan sistemini izah edib. Həmçinin, fakültədə, universitetdə aparılan islahatlardan, yeniliklərdən söhbət açıb.

***

Görüşlər zamanı tələbələrin və valideynlərin sualları da cavablandırılıb. İkinci ali təhsil, sərbəst işlərin qəbulu, imtahanın nəticələrinə təsir göstərən əsas amillər və kitabxana xidmətləri ilə bağlı məsələlərə də aydınlıq gətirilib. Sonra hər tələbə üçün ayrıca konvert təqdim olunub və həmin konvertə tələbə bileti, müqavilənin bir nüsxəsi, dərs cədvəli, universitet himninin mətni qoyulub.

**Hazırladı: Arif MƏMMƏDLİ**

# GÖRKƏMLİ ALİM, SEVİMLİ MÜƏLLİM, ŞƏFQƏTLİ HƏKİM

**Bu günlərdə ATU-nun Nevrologiya kafedrasının müdiri, Azərbaycan Nevroloqlar Assosiyasiyasının və Epilepsiya ilə Mübarizə Beynəlxalq Liqasının Azərbaycan bölməsinin prezidenti, əməkdar elm xadimi, Respublikanın əməkdar həkimi, tibb elmləri doktoru, professor Şərif İslam oğlu Mahalovun doğum gününün 80, təcrübi həkimlik və elmi-pedaqoji fəaliyyətinin 55 ili tamam olur. Akademik S.N.Davidenkov məktəbinin və N.İ.Piroqov adına II Moskva Dövlət Tibb İnstitutunun nevrologiya elmi məktəbinin yetirməsi olan Şərif müəllim Azərbaycanın görkəmli alimlərindən, qayğıkeş müəllimlərindən, şəfqətli həkimlərindəndir.**



Ş.Mahalov 1939-cu il sentyabrın 15-də Qax rayonunun İlisu kəndində qulluqçu ailəsində anadan olub. O, 1947-ci ildə Qax rayonundakı 7-illik beynəlmiləl məktəbin I sinfinə gedib, 1951-ci ildən təhsilini Zaqatala şəhər 2 saylı rus orta məktəbində davam etdirib və həmin məktəbi əla qiymətlərlə bitirərək, 1958-ci ildə Kuybışev (Samara) Dövlət Tibb İnstitutunun müalicə fakültəsinə daxil olub, 1960-cı ildə təhsilini Azərbaycan Dövlət Tibb İnstitutunda davam etdirib və 1964-cü ildə həmin institutu bitirib. O, 1964-cü ildə Zaqatala Mərkəzi Rayon Xəstəxanasında işə başladıqdan sonra Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda kurs keçərək nevroloq ixtisasına yiyələnib, dörd il praktik həkim vəzifəsində çalışdıqdan sonra ATİ-nin sinir xəstəlikləri kafedrasında aspiranturaya qəbul olunub və vaxtından əvvəl namizədlik dissertasiyası müdafiə edib. Gənc alim 1971-ci ildə həmin kafedranın assistenti vəzifəsində saxlanılıb. Ş. Mahalov kafedrada müalicəvi və pedaqoji işlərlə məşğul olmaqla yanaşı, paralel olaraq elmi axtarışlarını davam etdirərək yeni istiqamətli tədqiqat işləri aparıb. O, 1987-ci ildə N.İ.Piroqov adına II Moskva Dövlət Tibb İnstitutunda "Sinir və sinir- əzələ sistemlərinin irsi xəstəliklərinin fenotipik polimorfizmi və epidemiologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, professor elmi adına layiq görülüb və 1991-ci ildə ATİ-nin I Nevroloqiya və tibbi - genetika kafedrasının müdiri vəzifəsinə seçilib. 2011-ci ildə ATU-nun nəzdində fəaliyyət göstərən I və II Nevrologiya və tibbi genetika kafedraları birləşdirilib, onun da müdiri vəzifəsinə professor Ş.Mahalov seçilib.

Şərif müəllim tərəfindən ilk dəfə Azərbaycanda kliniki, kliniki-genioloji, populyasion, elektrofizioloji və biokimyəvi tədqiqat üsullarından istifadə edilərək miopatiyalar, amiotrofiyalar, irsi ataksiyalar, Hantinqton xoreyası, Tomsen miotoniyası hərtərəfli öyrənilibdir. O, ailədaxili və ailələrarası korrelyasiyalar, həmçinin, ailəvi və sporadik müşahidələrin tutuşdurulması sayəsində xəstəliyin ilkin təzahürlərinə, kliniki əlamətlərinin meydana çıxmasına, gedişinə, elektrofizioloji və biokimyəvi göstəricilərinə aid böyük variabellik aşkar edib və onların ədəbiyyatda dərc olunan materiallarla müqayisəsini aparıbdır.

Alim 297 ailədən olan 578 insanda müşahidələr aparıb və bu gün də onlar professor Ş.Mahalovun nəzarəti altındadır. Yorulmaz tədqiqatçı 10 mindən çox insan haqqında məlumat toplayıb, unikal xəstələr üzərində müşahidələr aparılmasına nail olubdur. Həcminə və dərinliyinə görə professor Ş.Mahalovun təqdim etdiyi elmi-tədqiqat işinin materiallarının keçmiş SSRİ-də analoqu olmayıbdır. İnkişaf etmiş xarici ölkələrdə də belə materiallar məhduddur. Mütəxəssislər etiraf edirlər ki, çox nadir hallarda bir tədqiqatçının əlində bu qədər tutarlı zəngin material olur.

Ş.Mahalovun Hantinqton xoreyası, Tomsen miotoniyası və irsi ataksiyaların patogenezinin öyrənilməsi üzrə işləri böyük maraq doğurur. O, ilk dəfə Hantinqton xoreyası zamanı qeyri-iradi hərəki pozulmaların yüksəkliyi ilə dofaminin ekskresiya səviyyəsi arasında mənfi korrelyasiyanın olmasını aşkar edibdir. Alim dofamin mübadiləsi pozulmasının həlledici rol oynadığı bu ağır xəstəliyin patogenetik mexanizmi haqqında əsaslandırılmış hipotez irəli sürübdür. Ş.Mahalov elektromioqrafiya (EMQ) və elektroneyromioqrafiyanın (ENMQ) kompleks tətbiqi əsasında xəstəliyin mərhələlərini obyektiv əks etdirən meyarlar təklif edib və dünya təcrübəsində ilk dəfə olaraq Hantinqton xoreyası, spino-serebellyar ataksiyalı xəstələrin qohumlarını müayinədən keçirərək sübut edibdir ki, EMQ və ENMQ-də alınan dəyişikliklər xəstəliyin kliniki təzahürlərinin üzə çıxmasını qabaqlayır. O, aşkar edilmiş xəstələrin müalicəsi üçün tələb olunan vəsaiti və xəstəliyin səviyyəsinin aşağı düşməsi zamanı edilən qənaətin ölçüsünü hesablayıbdır. Professor Ş.Mahalov apardığı epidemioloji tədqiqatlara əsasən hələ keçən əsrin 80-ci illərinin əvvəllərində Azərbaycan Respublikasında tibbi-genetik xidmətin strukturunu vermişdir. Alim Bakı, Gəncə, Şəki və Lənkəran şəhərlərində 4 zona üzrə tibbi-genetik kabinet təşkil etməyi tövsiyə edib. Təklif olunan tibbi-genetik xidmət strukturu və Azərbaycanda sinir sisteminin irsi xəstəliklərinin azalması üzrə konkret model keçmiş SSRİ-nin başqa regionlarında analoji tədbirlər üçün tövsiyə edilibdir. Qeyd etmək lazımdlr ki, Azərbaycan aliminin yuxarıda sadalanan bütün tədqiqtları postsovet məkanındakı MDB ölkələrində analoqu olmayan tədqiqatlardır.

Professor Ş.Mahalov Azərbaycanda angionevrologiyanın da inkişafına xüsusi diqqət yetirir. Şərif müəllimin rəhbərliyi altında beyin insultunun yayılması, onun əsas risk faktorları, kliniki təzahürləri və strukturu, biokimyəvi dəyişikliklər, hemorragik transformasiya, insultdansonrakı əlilliklər, həmçinin Bakıda işemik insultun kəskin mərhələsində tibbi yardımın və müalicənin təşkilinin vəziyyəti öyrənilibdir. Ş.Mahalov ATU-nun Nevrologiya kafedrasının çoxillik təcrübəsinə əsaslanaraq Bakıda 30 çarpayılıq neyro-damar şöbəsinin təşkilinin vacibliyini tövsiyə edib və bu şöbənin funksional strukturunu veribdir.

Keçən əsrin 90-cı illərində Azərbaycanda müharibə nəticəsində Qarabağ regionunda çoxlu sayda uzun müddət müalicə tələb olunan yaralılar və kontuziya almış əsgərlər var idi. Bu problem professor Ş.Mahalovun diqqətindən kənarda qalmadı. Onun rəhbərliyi altında Qarabağ müharibəsini keçmiş şəxslərdə dəyişiklik - "Posttravmatik stres sindiromu" aşkar edildi. Bu sindirom "Qarabağ sindiromu" kimi səciyyələndirilibdir. Ş.Mahalov və əməkdaşları Qarabağ müharibəsi veteranlarında "Qarabağ sindiromu"nun olmasının etiraf edilməsinin vacibliyini əsaslandırıblar və onların psixososial reabilitasiyası proqramı kompleksini işləyib hazırlayıblar.

Alimin indiki elmi istiqaməti epilepsiya sahəsinə yönəlibdir. Bu xəstəliklə əlaqədar problem o qədər aktualdır ki, hazırda həkimlərin və alimlərin birgə səyi sayəsində nevrologiyada yeni epileptologiya istiqaməti yaradılıbdır. Bu xəstəliyə dünyanın hər yerində rast gəlinir və yer üzündə 75 milyona qədər insan bundan əziyyət çəkir. Nevrologiya kafedrasının əməkdaşları professor Ş.Mahalovun rəhbərliyi altında son 20 ildə Azərbaycanda ilk dəfə olaraq epilepsiyanın əsaslı epidemiologiyası, onun ayrı-ayrı klinik formalarının xarakteristikası, qadınlarda epilepsiya, epilepsiyalı xəstələrin həyat tərzi və keyfiyyəti öyrənilib və bu mövzuda sanballı disertasiyalar müdafiə olunub. Respublikada epilepsiyanın hərtərəfli öyrənilməsi üçün həm ixtisaslaşdırılmış tibbi, həm də sosial, psixoloji, hüquqi yardımın təşkil olunmasına dair xüsusi strukturlar təklif olunubdur. Hazırda professor Ş. Mahalovun rəhbərliyi altında epilepsiyanın aktual problemlərinə həsr edilmiş 1 doktorluq, 8 namizədlik işi hazırlanır. Ümumiyyətlə onun rəhbərliyi altında 1 doktorluq və 16 namizədlik dissertasiyası işi yerinə yetirilibdir. Alim 251 çap olunmuş elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. Professor Ş.Mahalov uzun illər Səhiyyə Nazirliyinin baş nevropatoloq-mütəxəssisi, ATU-nun FD 03.015 dissertasiya şurasının sədri, AAK-ın ekspert şurasının üzvü olub. Şərif müəllim onlarla xarici ölkələrdə keçirilən elmi konqres və simpoziumlarda elmi məruzələrlə çıxışlar edib.

Professor Ş. Mahalov dəfələrlə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və ATU-nun "Fəxri fərmanları"na, eləcə də Respublikanın "Əməkdar həkimi", "Əməkdar elmi xadimi" fəxri adlarına layiq görülüb.

Şərif müəllim 51 ildir ki, ATU-da çalışır və onun 28 ilini kafedraya rəhbərlikdə keçirərək böyük bir kollektivin hörmətini qazanmış nüfuzlu alimlərdən, zabitəli müəllimlərdəndir.

Professor Ş.Mahalov 2010-cu ildə ölkə Prezidenti cənab İlham Əliyevin onun çoxillik qüsursuz xidmətlərinə verdiyi yüksək qiyməti - əməkdar elm xadimi fəxri adına layiq görülməsini ATU kollektivinin əməyinə verilən qiymətlərdən biri kimi dəyərləndirərək, ölkə başçısına səmimi təşəkkür və minnətdarlığını bildirmişdi. Bu təltifdən ruhlanan alim nevrologiya elminin inkişafı yolunda yeni cığırlar açıb, yeni nailiyyətlər əldə edibdir.

Şərif müəllim həm də qayğıkeş ailə başçısıdır. Onun oğlu - tibb elmləri doktoru, İslam Mahalov ATU-nun I Mamalıq və ginekologiya kafedrasının gənc və perspektivli aparıcı professorlarındandır, qızı Vəfa Mahalova Almaniyanın Bilefeld şəhərindəki Betel Epilepsiya Mərkəzində həkim-nevroloq mütəxəssisi kimi fəaliyyət göstərir.

ATU-nun Nevrologiya kafedrasının müdiri, ə.e.x., t.e.d., professor Şərif Mahalovu anadan olmasının 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, Ulu Tanrıdan ona möhkəm cansağlığı, xoşbəxtlik diləyir, gələcək işlərində yeni nailiyyətlər arzulayırıq.

*Nevrologiya kafedrasının əməkdaşları*

# Kollektivin və tələbələrin sevimlisi

**ATU-nun Dermatovenerologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Fərid Rüfət oğlu Mahmudovun 60 yaşı tamam oldu.**



F.Mahmudov 1959-cu il sentyabrın 7-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1976-cı ildə ATU-nun müalicə-profilaktika fakültəsinə qəbul olan F.Mahmudov 1982-ci ildə universiteti bitirmiş və əmək fəaliyyətinə başlamışdır. 1982-1983-cü illərdə Respublika Dəri-zöhrəvi Dispanserində dermatovenerologiya üzrə həkim-intern, 1983-1985-ci illərdə həkim-dermatoveneroloq, 1985-1988-ci illərdə Moskva şəhərində Həkimləri Təkmilləşdirmə İnstitutunda aspirantura şöbəsində aspirant olmuşdur. 1988-1990-cı illərdə AzDHTİ-nun dermatovenerologiya kafedrasında assistent kimi çalışmışdır. 1990-cı ildən indiyədək ATU-nun Dermatovenerologiya kafedrasında əvvəlcə assistent, sonra dosent, daha sonra professor vəzifəsində fəaliyyət göstərib. 1991-1993-cü illərdə Respublika Dəri-zöhrəvi Dispanserində baş həkim vəzifəsində çalışmış və 2017-ci ildən bu kafedranın müdiri seçilmişdir.

F.Mahmudov 1988-ci ildə Moskva şəhərində "Центральная электронная анальгезия в лечении атопического дерматита" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi almışdır. 2010-cu ildə Bakı şəhərində "Azərbaycanda kişilərdə genital herpes" mövzusunda doktorluq dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək tibb üzrə elmlər doktoru alimlik dərəcəsini almışdır. 2014-cü ildə ona Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən professor elmi adı verilmişdir

F.Mahmudov Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş dermatoveneroloqu, Elmi Tibbi Şuranın üzvüdür. AzDHTİ-nun nəzdində yaradılmış Dermatovenerologiya üzrə ixtisaslaşdırılmış 03.041 saylı Dissertasiya Şurasının, EEAD assosiasiyasının, "Azərbaycan təbabətinin müasir nailiyyətləri" jurnalın redaksiya şurasının, "Clinical dermatology", Polsha – jurnalının redaksiya heyətinin, İUSTİ-nin (№528) redaksiya kollegiyasının, İSBN 9952-8091-0-7 – jurnalının redaksiya heyətinin üzvüdür.

100-dən çox elmi işin, 3 monoqrafiya, dərslik, tövsiyə və protokolların müəllifidir.

Işlərində həmişə nizam-intizamı ilə fərqlənən F.Mahmudov xəstələrinə qarşı da diqqətlidir.

Doğma kollektivin, kafedranın rezidentlərinin və tələbələrin hörmətini qazanan Fərid müəllimi ürəkdən təbrik edir, ona uzun ömür, can sağlığı arzulayırıq.

*Dermatovenerologiya kafedrasının əməkdaşları*

# Daha bir riskli əməliyyat uğurla icra edilib

◆ Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında daha bir növbəti riskli əməliyyat uğurla icra olunub. Belə ki, 81 yaşlı xəstə qadında zəhərli zob əməliyyatı keçirilib.



ATU-nun Tədris Cərrahiyyə Klinikasının endokrinoloq cərrahı Azər Hümmətovun verdiyi məlumata görə, yaşlı xanım son bir il ərzində zəhərli zobdan dərman müalicəsi alıb. Lakin müalicə effekt verməyib. Xəstədə boğulmalar artıb və tireostatik dərmanların yan təsirləri müşahidə olunub.

"Digər xəstəxanalarda xanım yaşına görə əməliyyat riskli sayıldığından, buna razılıq verilməyib. Lakin Tədris Cərrahiyyə Klinikasında xəstənin 81 yaşı olmasına baxmayaraq, planlı olaraq əməliyyata hazırlandı və avqustun 28-də xəstədə total tiroidektomiya əməliyyatını icra etdik".

Əməliyyatın uğurla başa çatdığını deyən A.Hümmətov əməliyyatı icra eədn həkimlərə və ATU Tədris Cərrahiyyə Klinikasının kollektivinə təşəkkür edib.

# ATU-nun təmsilçisi nüfuzlu beynəlxalq jurnalın İdarə Heyətinə üzv seçildi

**◆ Azərbaycan Tibb Universiteti, Azərbaycan Ümumi və toksikoloji kimya kafedrasının assistenti Kəmalə Bədəlova nüfuzlu beynəlxalq jurnalın Münsiflər Heyətinə üzv seçilib.**

Bu haqda K.Bədəlova Beynəlxalq İncəsənət, Humanitar Elmlər, Ədəbiyyat və Elm Jurnalının baş redaktorundan (International Journal of Arts, Humanities, Literature and science – İJAHLS) təsdiq məktubu alıb.



INTERNATIONAL JOURNAL OF ARTS, HUMANITIES, LITERATURE AND SCIENCE
ISSN (Online): 2581-3641

Ref ID: IJAHLS/BOR/2019/2016104
Editorial Board
Editor in Chief
Date: September 10, 2019

IJAHLS

To
Prof. Kamala Badalova
Assistant Professor
Department of General and Toxicological Chemistry
Azerbaijan Medical University, Azerbaijan

Dear Madam,
**Subject:** Appointment as a **Member** in *IJAHLS* **Board of Referees**

Thank for your interest with *IJAHLS*.

With Subject to the above, I am pleased to say that you are appointed as one of our **Member** in the **Board of Referees** of International Journal of Arts, Humanities, Literature and Science.

We expect from you to,
- Ensure the rigorous standards of the scientific process by taking part in the peer review process.
- Uphold the integrity of the journal by identifying invalid research, and helping to maintain the quality of the journal.
- Help in preventing ethical breaches by identifying plagiarism, research fraud and other problems by dint in the familiarity of your subject area.
- Fulfill a sense of obligation to the community and their own area of research.
- Reciprocate professional courtesy, as authors and reviewers are often interchangeable roles - as reviewer, researchers reciprocate the same consideration they receive as authors.

You can visit our journal website www.ijahls.com for submitting papers, conferences tie up, special issues and Article Processing Charges (APC).

We will be in contact with you for our future activities and pleased to receive any suggestions from you.

We shall look forward to hale and passionate long lasting scientific relationship for promoting the scientific community.

Məktubda qeyd edilib ki, ATU-nun təmsilçisi Beynəlxalq İncəsənət, Humanitar Elmlər, Ədəbiyyat və Elm Jurnalı Münsiflər Heyətinə üzv seçilib. Bu vəzifədə K.Bədəlova jurnala göndərilən elmi araşdırmalara rəy verilməsi prosesində iştirak edəcək, etibarsız araşdırmaları müəyyənləşdirib, plagiat və digər problemləri üzə çıxarmaqla etik pozuntuların qarşısını almağa kömək edə biləcək. Baş redaktor ATU-nun nümayəndəsi Kəmalə Bədəlovanın jurnalın işinə töhfə verəcəyindən əminliyini bildirib.

**ATU-nun mətbuat xidməti**

# ELMİRA FƏRRUX QIZI ABASOVA

**Universitetin Ümumi gigiyena və ekologiya kafedrasına ağır itki üz vermişdir. Keçən dərs ilinin sonunda kafedranın təcrübəli müəllimlərindən biri, tibb üzrə fəlsəfə doktoru, dosent Elmira Abasova vəfat etmişdir.**



Elmira Fərrux qızı Abasova 1952-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra 1970-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Sanitariya-gigiyena fakültəsinə daxil olmuşdur.

1976-cı ildə E.Abasova İnstitutu bitirdikdən sonra Bakı şəhəri Nəsimi rayon sanitariya-epidemioloji stansiyasında (indiki GEM) həkim vəzifəsinə göndərilmiş və 1981-ci ilə qədər həmin vəzifədə çalışmışdır.

Elmira xanım 1981-ci ildən ömrünün sonuna qədər Ümumi gigiyena və ekologiya kafedrasında ardıcıl olaraq əvvəlcə baş laborant, sonra isə assistent, baş müəllim və dosent vəzifələrində işləmişdir. Kafedrada çalışdığı müddətdə Elmira xanım özünü bacarıqlı, işgüzar işçi, yüksək ixtisaslı pedaqoq və elmi-tədqiqatçı kimi göstərmişdir.

E. Abasova İctimai səhiyyə fakültəsinin və kafedranın ictimai işlərində fəal iştirak etmişdir. O, uzun müddət fakültə Elmi Şurasının katibi və kafedrada elmi-tədqiqat işlərinin kuratoru olmuşdur. O, 30-dan çox elmi məqalənin, bir neçə dərslik və dərs vəsaitinin həmmüəlliflərindən biri olmuşdur.

Elmira xanım yüksək insanı və əxlaqi keyfiyyətlərə malik bir insan idi. İstər öz həmkarları, iş yoldaşları, istərsə də tələbələr arasında dərin hörmət qazanmışdır.

E.Abasovanın universitetdə çoxillik fəaliyyəti universitet rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş, təşəkkür və fəxri fərmanlara layiq görülmüşdür.

Elmira müəllimənin əziz xatirəsi kollektivin və onu tanıyanların yaddaşında daim qalacaq və dərin hörmətlə yad ediləcəkdir.

***Allah rəhmət eləsin, qəbri nurla dolsun!***

*İctimai Səhiyyə fakültəsinin dekanlığı, Ümumi gigiyena və ekologiya kafedrasının əməkdaşları*

# Amalya Həsən qızı Bağişeva

**"Biofiziki və bioüzvi kimya" kafedrasına ağır itki üz vermişdir. Kafedranın Baş müəllimi, kimya üzrə fəlsəfə doktoru Bağişeva Amalya Həsən qızı vəfat etmişdir.**



Bağişeva Amalya Həsən qızı 30 sentyabr 1938-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1959-cu ildə 189 saylı orta məktəbi bitirmiş, 1960-cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə qəbul olmuş, 1966-cı ildə isə oranı başa vurmuşdur. 1962-cı ildən Azərbaycan Tibb Universitetində laborant vəzifəsinə qəbul olunan Amalya xanım ömrünün sonuna qədər ATU-nun "Biofiziki və bioüzvi kimya" kafedrasında baş müəllim vəzifəsində çalışmışdır.

A.Bağişeva 1985-ci ildə fiziki kimya ixtisası üzrə elmi işini müdafiə etmiş, kimya elmləri namizədi elmi adını almışdır. Bir neçə Ümumittifaq, beynəlxalq, institut elmi konfranslarının iştirakçısı olmuşdur. 30 çap olunmuş elmi işin, o cümlədən, 2 dərs vəsaitinin, 4 metodik işləmənin müəllifidir.

O, ATU-nun tələbələri üçün nəzərdə tutulmuş biofiziki və bioüzvi kimyadan ilk metodik vəsaitələrin və test kitablarının müəllifidir. Biofiziki kimyanın bir fənn kimi formalaşmasında və tədrisində böyük rolu olmuşdur. ATU-da imtahanların test sisteminə keçməsilə əlaqədar həm Azərbaycan, həm də rus dillərində hazırlıq şöbəsinin dinləyiciləri üçün sualların tərtibində bilavasitə yaxından iştirak etmişdir. 57 illik pedaqoji fəalliyyəti ərzində Amalya xanım minlərcə tələbənin və həkimin sevimli müəllimi və məsləhətçisinə çevrilmişdir. Öz fədakar əməyilə ATU-nun kimya kafedrasının bir cox cavan müəllimlərinin yetişib formalaşmaşında yaxından iştirak etmişdir.

2010-cu ilin sentyabrında Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Azərbaycan Respublika Komitəsinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

2018-cı ilin oktyabrında Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilmişdir.

Amalya xanımın əziz xatirəsi doğma kollektivin və eləcə də onu tanıyanların xatirəsində həmişə yaşayacaqdır.

***Allah rəhmət eləsin, qəbri nurla dolsun!***

*"Biofiziki və bioüzvi kimya" kafedrasının əməkdaşları*

# Dərc olunanlara qayıdırıq: Cüt bacının ikinci həyatı

**◆ İki il əvvəl "Təbib" qəzeti Aytac və Afət Bayramlılar haqqında kiçik bir oçerk dərc etmişdi (31 avqust 2017, N14). Aytac müalicə-profilaktika fakültəsini əla qiymətlərlə başa vurub, kiçik bacı isə Azərbaycan Dövlət İqtisad Universitetini (UNEC) bitirmişdir. Qızlar orta təhsili BDU nəzdindəki "Gənc İstedadlar" liseyində başa vurmuş, yaş fərqinə baxmayaraq, hər ikisi 2017-ci ilin məzunu kimi ali məktəbdən ayrılmışdılar.**



...Vaxt tez başa çatdı, özü də uğurlu keçdi, bacılar isə birinci mərhələni başa vurdular. İndi onlar yenə də xaricdədirlər. Biri Almaniyada həkim-rezident, o biri isə Budapeştdə maliyyəçi kimi işə başlayıblar.

* * *

Aytac Bayramlı Almaniyanın Ansbax şəhər xəstəxanasında 3 aylıq kurs keçdi. Azərbaycan Tibb Universitetində qazandığı biliyini təkmilləşdir di, müalicə, cərrahlıq sahəsində lazımi vərdişlərə yiyələndi. Vaxtının əksər hissəsini isə alman dilini öyrənməyə verdi. Sonda ölkə səhiyyəsinin təşkil etdiyi komissiya qarşısında imtahandan keçdi. Öz dediyinə görə, onu ayrıca kabinetdə həkim kreslosunda əyləşdirdilər. Dedilər ki, sən indi həkimin səlahiyyətlərini yerinə yetirməli, qəbula gələn xəstəni dindirib müayinə edəcəksən. Onun şikayəti əsasında lazimi qənaətə gəldikdən sonra diaqnoz qoymalı, müalicəsini məsləhət görməli, resept yazmalısan...

Aytac "pasiyenti" qəbul edib onunla ətraflı söhbətləşdi (ancaq alman dilində), məsləhətini verdi, resept yazıb ona uzadanda komissiya rəhbəri qızın əlini sıxıb bildirdi ki, sən sınaqdan çıxdın, bu gündən bizim həkim – rezident işləyəcəksən.

Əvvəlcədən CV-sini verib nəticəni gözləyən A.Bayramlı çox da böyük olmayan AUE şəhərində indi həkim işləyir, rezident kimi fəaliyyət göstərir. Onun aylıq məvacibi, öz dediyinə görə 2000 avro təşkil edir. El arasında deyildiyi kimi, həm ziyarət, həm ticarət! Yeni kollektivdə əmək fəaliyyətinə başladığı 2 ay ərzində o, yaxşı hörmət qazanmışdır.

Kiçik bacı Afət haqqında geniş danışmağa elə də ehtiyac yoxdur. Evdə, ailədə heç kimlə məsləhətləşmədən o, elektron əlaqə vasitəsilə əvvəlcədən müəyyənləşdirdiyi Macarıstanda magistr mərhələsi keçdi, özü də ölkənin sayılıb-seçilən ali təhsil ocağında - Korvinus Universitetində ingilis dilini əsaslı surətdə təkmilləşdirdi, bacarıqlı mütəxəssis kimi yetişdi. O da elektron yazışma yolu ilə təhsili bitirmə ərəfəsində iş yeri axtarıb tapmışdı.

Müalicədə olan xəstə atasına baş çəkmək üçün Afət Bakıya gəlmişdi. Bir neçə gün sonra xəbər tutdu ki, səhəri imtahandır. Təcili universitetə qayıtmaq lazımdır. Afət ata-anası ilə vidalaşıb tez təyyarə meydanına çatdı və Budapeştə uçdu. Oradan birbaşa dövlət komissiyası qarşısında dayanıb imtahan verdu. Qızın cavabı əla qiymətləndirildi. Münsiflər heyətində təmsil olunan mütəxəssis qızın ingiliscə sərbəst cavabını görüb dedi ki, sən sabahdan bizim dünya şöhrətli "Ekson mobile" neft şirkətində çalışacaqsan, vaxt itirmədən işə çıxa bilərsən.

Ay yarımdır ki, Afət Bayramlı bu şirkətdə maliyyəçi işləyir, aylıq maaşı 900 avro təşkil edir. Soruşanda ki, Afət, bala, nə çətinliyin var? Cavab verir ki, heç bir problemim yoxdur, işin öhdəsindən normal gəlirəm. Çalışıram ki, aldığım təhsilin şərəfini, doğma ölkəmizin adını layiqincə doğruldum.

Eşq olsun bacılar! İndi siz taleyinizin Almaniya və Macarıstan mərhələsini yaşayırsınız. Qürbət çətin olsa da, sizin iradənizə, biliyinizə əminik. Arzu edirik ki, tutduğunuz yol sizə yeni-yeni uğurlar gətirsin! Valideynlərinizin – ata Rahid və ana Sevgili müəllimənin başını uca etsin! Bir daha əminik ki, qazandığınız təcrübə, dünyağörüşü sizə çox şey vəd edir. QİSMƏTİNİZİ ULU TANRI VERSİN!

**Ə.ƏSGƏROV,**
*Əsaslı kitabxananın böyük kitabxanaçısı, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## Yeni nəşrlər

# "Klinik kardiologiya və praktik elektrokardioqrafiya"ya dair yeni dərs vəsaiti işıq üzü görüb

**◆ ATU-nun I Daxili xəstəliklər kafedrasının əməkdaşları – professor S.N. Alimetov, dosent Ş.S. İbrahimova və akademik C. M. Abdullayev adına Respublika Elmi- Tədqiqat Kardiologiya İnstitutunun aparıcı mütəxəssisləri A.B. Baxşəliyev, R.N Nəcəfov, N.B. Əhədov, G.M. Dadaşova, S.M. Qəhrəmanova və S.N. Cabbarovanın kollektiv müəllifliyi ilə ərsəyə gələn "Klinik kardiologiya və praktik elektrokardioqrafiya " adlı dərs vəsaiti bu günlərdə yüksək nəfis tərtibatda işıq üzü görüb.**




Professor F. Quliyev, t.ü.e.d. Ə. Babayev və t.ü.e.d. R.Daşdəmirovun birgə rəyi ilə çap olunan bu dərs vəsaitində ürək-qan damar xəstəliklərinin əlamətləri, diaqnostikası, diferensial diaqnostikası, müalicəsi əldə olunmuş nəzəriyyə və təcrübə əsasında proqramlaşdırılmış şəkildə, böyük həcmdə, nozoloji və sindrom prinsipi üzrə təsvir olunub. Burada həm də təcrübədə istifadəyə tam yararlı halda elektrokardioqrafiya və digər yardımçı hissələr verilib.

Məlumat üçün onu da bildirək ki, II hissədən, 36 fəsildən və 622 səhifədən ibarət olan "Klinik kardiologiya və praktik elektrokardioqrafiya " kitabının Azərbaycan dilində tərtibi və yazılışı zamanı müəlliflər indiyə qədər mövcud olan dərslik və materiallara istinad ediblər. Bu sahədəki son nailiyyətlərə və təcrübəyə əsaslanan müəlliflər dərsliyi yenidən işləyərək onu daha da təkmilləşdirmək məqsədilə klinik kardiologiya, elektrokardioqrafiya, propedevtika, diaqnostika, klinika və müalicə prinsiplərini digər şöbələrlə əlaqəli şəkildə təsvir ediblər.

Kitabda müəlliflər həmçinin elektrokardioqrafiyanın anatomik fizioloji əsasları, elektrokardioqramın çəkilməsi, ürəyin müxtəlif hissələrinin hipertrofiyası, ürək ritmi və impulsun keçirilməsinin pozulmaları, koronar arteriya xəstəliyi, digər elektrokardioqrafik diaqnostika üsulları, elektrokardioqramda rast gəlinən müxtəlif hallar, uşaq yaşlarında elektrokardioqramın xüsusiyyətləri, peysmeker və taxılan kardioverter-defibrilyator, elektrokardioqrafik nəticənin şərhi barədə ətraflı və geniş məlumatlar yer alıb.

Kitab tələbələr, kardioloqlar, terapevtlər, gənc həkimlər, rezidentlər və bu sahə ilə maraqlanan digər mütəxəssislər üçün nəzərdə tutulub.

# Yeni dərslik ATU-nun Əsaslı kitabxanasına hədiyyə edilib

**◆ Azərbaycan Tibb Universitetinin Mikrobiologiya və İmmunologiya kafedrasının əməkdaşları- AMEA-nın müxbir üzvü, professor Zakir Qarayev və dosent Ramin Bayramlının hazırladıqları "Tibbi Mikrobiologiya, İmmunologiya və Klinik Mikrobiologiya" adlı dərsliyin 500 nüsxəsi müəlliflər tərəfindən ATU-nun Əsaslı kitabxanasına hədiyyə edilib.**




"Tibbi Mikrobiologiya, İmmunologiya və Klinik Mikrobiologiya" adlı dərslik bu ilin əvvəlində işıq üzü görüb. Dərslikdə müxtəlif patogen mikroorqanizmlərin - bakteriya, virus, göbələk, ibtidai və helmintlərin xüsusiyyətləri, onların törətdiyi xəstəliklərin əsas klinik əlamətləri, müasir mikrobioloji, immunoloji, molekulyar-genetik diaqnostika prinsipləri, həmçinin klinik mikrobiologiya və sanitar mikrobiologiya sahələrinin mühüm müddəaları şərh edilib. Vəsait Azərbaycan Tibb Universitetinin tələbələri üçün müvafiq fənnin proqramına uyğun yazılıb.

Bundan sonra tələbələr istənilən vaxt həmin dərsliyi universitetin kitabxanasından əldə edə bilərlər. Qeyd edək ki, dərslikdən rezidenturada təhsil alanlar və həmçinin praktik həkimlər də istifadə edə bilərlər.

**ATU-nun mətbuat xidməti**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Fakültənin dekanı:**
- I müalicə-profilaktika fakültəsi

**Kafedraların dosentləri:**
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 3 yer
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**
- Normal fiziologiya kafedrası - 1 yer
- II cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-10-08.

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**2018-2019-cu tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinika və laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı və surətləri. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müəllimin bal-reytinq cədvəli.
10. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd:** ***ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci, 7-ci və 9-cu bənddəki sənədlərin əvəzinə sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.***

## Universitetimizin «StartUp» komandası “İnnocamp” düşərgəsində iştirak edib

**Şamaxıda startapçı tələbələr üçün “İnnocamp” innovasiya yay düşərgəsi keçirilib. Burada Bakı, Naxçıvan, Lənkəran, Gəncə, Mingəçevir, Şəki, Sumqayıt, Sabirabad, Zaqatala, Şamaxı, Göyçay və Tovuz şəhərlərində baş tutmuş startap turlarının finalçıları iştirak edib. 18 komandanı təmsil edən 54 tələbə üçün marketinq, dizayn və təqdimatların hazırlanması üzrə təlimlər keçirilib.**




Düşərgədə Azərbaycan Tibb Universitetinin “StartUp” komandası da iştirak edib. Komandanın üzvləri Etibar Abbasov, İsmayıl Nəzərli və Məhərrəm Alimli düşərgədə “Palliativ+” layihəsini təqdim ediblər. Layihənin məqsədi ölkəmizdə palliativ qulluq xidmətini daha əlçatan vəziyyətə gətirməkdir.

3 gün davam edən təlimlərdə komandamız aktiv iştirak edib və öz startaplarının inkişafı üçün mütəxəssislərdən dəyərli məlumatlar alıblar. Onlara startap ekosistemi, ideyanı biznesə çevirməyin yolları barədə məlumat verilib. Düşərgədə bu sahədə bilik mübadiləsi aparılıb və ümumi ekosistemin formalaşdırılması müzakirə edilib.

Qeyd edək ki, “İnnocamp” innovasiya yay düşərgəsi avqust ayının 29-dan 31- dək Şamaxıda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, BMT-nin İnkişaf Proqramı, “İ2B-İdeyadan Biznesə” layihəsi çərçivəsində keçirilib.

## Tələbəmiz Luisvill Universitetinin «Externship in Graduate Periodontics» proqramını uğurla bitirib

**Azərbaycan Tibb Universitetinin tələbəsi ilk dəfə olaraq ABŞ-ın Luisvill Universitetinin (University of Louisville School of Dentistry) proqramına qəbul olub. İlk dəfədir ki, bu proqrama hələ təhsilini bitirməyən tələbəni qəbul ediblər.**

ATU-nun Stomatologiya fakültəsinin IV kurs tələbəsi Can Barut Asaf Gürhan oğlu avqustun 9-dan 22-dək “Externship in Graduate Periodontics” proqramında iştirak edib. Onun sözlərinə görə, Luisvill Universitetinin tarixində ilk dəfə olaraq Externship in Graduate Periodontics proqramına stomatologiya üzrə tələbə qəbul olunub.

“Amerika və Kanadada externship proqramı mini rezidentura kimi qəbul edilir. Normal halda bu proqramı keçmək üçün universiteti bitirmək lazımdır ki, əməliyyatlarda iştirak etməyə icazə verilsin. Tələbələr isə adətən observership proqramına qəbul olunurlar. Bu zaman tələbə əməliyyatları sadəcə kənardan müşahidə edir. Lakin nadir hallarda tələbənin proqrama olan marağı, elmi bilik səviyyəsi, ingilis dil bacarıqları və digər şərtlər nəzərə alınaraq externship proqramında iştiraka icazə verilir. Azərbaycanda oxuyan türk tələbəsi kimi Azərbaycan bayrağını Luisvill Universitetində asmaq, Azərbaycanı və Tibb Universitetini tanıtmaq çox qürurverici idi”.

C.Barut deyir ki, bu proqramda Meksika, İtaliya, İspaniya, Kanada, ABŞ-dan həkimlərlə yanaşı olub.

Externship Professor Henri Qrinvilin (Henry Greenwell) rəhbərliyi altında keçirilib. Qeyd edək ki, Louisvill Universitetinin Stomatologiya fakültəsinin Paradontologiya sahəsində rezidentura şöbəsinin müdiri, professor H.Qrinvil



Amerikan Paradontologiya Təşkilatının ömürlük fəxri üzvüdür.

Tələbəmizin uğurları Externship in Graduate Periodontics Proqramının direktoru tərəfindən yüksək qiymətləndirilib.

## ATU TGT-nin təşkilatçılığı ilə I kurs tələbələri universitetlə tanış oldular

**Sentyabrın 13-də Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə “Oriyentasiya Günü”nə həsr olunmuş tədbir keçirilib. Tədbirdə universitetin I kursuna qəbul olmuş tələbələr iştirak ediblər.**

Tələbələr könüllülük əsasında elektron şəkildə qeydiyyatdan keçməklə tədbirdə iştirak etmək imkanı qazanıblar.

Ümumilikdə “Oriyentasiya Günü” 350 nəfərdən çox tələbənin iştirakı ilə baş tutub. Günün təşkil olunması üçün təşkilat daxilində xüsusi təşkilat komitəsi formalaşdırılıb. Tədbirdə çıxış edən ATU TGT-nin sədri R.Vəliyev oriyentasiyanın mahiyyəti barədə tədbir iştirakçılarına açıqlama verərək bildirib ki, bir çox dünya ölkələrində tədrisdən öncəki həftələdə oriyentasiya günü keçirilir. Daha sonra iştirakçılara universitetin strukturu, rəhbər və məsul şəxslər, klinikalar, tələbə həyatı və s. ilə bağlı video-görüntülər vasitəsilə də məlumat verib. İmtahanın keçirilmə qaydaları və şərtləri barədə bəzi məqamları tədbir iştirakçılarının diqqətinə çatdıran R.Vəliyev ATU-da əsas meyar olaraq biliyə qiymət verildiyini, imtahanları yüksək səviyyədə vermək üçün tələbələrə əzbərçilikdən uzaq olmağı da tövsiyə edib. Daha sonra TGT sədri tədbirin təşkil olunmasına şərait yaratdıqlarına görə təşkilat adından universitetin rektoru, professor Gəray Gəraybəyliyə təşəkkürünü bildirib.

Sonda tələbələrə TGT-nin əməkdaşları tərəfindən bütün tədris korpusları və tədris klinikaları, tədris olunacaq fənlər,




elektron və adi kitabxana, oxu zalları və tələbə yeməkxanaları haqqında ətraflı məlumat verilib.

Tədbir zamanı istedadlı tələbələrin rəqsləri və musiqi alətlərində ifaları iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Musiqiçi qonaq qismində Milli Konservatoriya Nəzdində Musiqi Kollecinin xor drijorluğu fakültəsinin II kurs tələbəsi və “Azərbaycanın səsi” televiziya mahnı müsabiqəsinin qalibi Aydan İlxaszadə çıxış edib və yeni qəbul olan tələbələrimizi təbrik edib.

Məlumat üçün bildirək ki, hazırda ATU TGT-nin 3000 nəfərdən çox üzvü mövcuddur və təşkilatın fakültə nümayəndələri, klub və departamentləri aktiv şəkildə fəaliyyət göstərir. Təşkilata üzv olmaq tamamilə ödənişsizdir və elektron formada aparılır.

### Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin V kurs, $20^{a}$ qrup tələbəsi Əskərova Ramilə Zəfər qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $418^{i-a}$ qrup tələbəsi Mohammed Hasanın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $717^{i-4}$ qrup tələbəsi AL- Bulanee Amjed Raheem Hasan oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $317^{a-21}$ qrup tələbəsi Yunuszadə Ayan Əsgər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin III kurs, $817^{a-2}$ qrup tələbəsi Nəbiyev Arzu Dilavər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin II kurs, $618^{A-1a}$ qrup tələbəsi Şəldiyev Məqsəd Ədalət oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin III kurs, $517^{a-3}$ qrup tələbəsi Nəsibli Nicat Dilqəm oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin IV kurs, $782^{a}$ qrup tələbəsi Əzizov Murad Ülvi oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $717^{r-1}$ qrup tələbəsi Quliyeva Minayə Fikrət qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, $207^{a}$ qrup tələbəsi Bayramova Nigar Yuris qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $117^{r-3}$ qrup tələbəsi İsmayıllı Aysel Asif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Nurayev Rauf Burhan oğluna 1990-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən psixiatriya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $117^{a-15}$ qrup tələbəsi Cemal Can Oto Önder oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

### Allah rəhmət eləsin!

“Təbib” qəzetinin kollektivi İlqar həkimə anası **Fatma Talıb qızı Ömərovanın** vəfatından kədərlindiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İnsan anatomiyası və terminalogiya kafedrasının kollektivi dosent Ziyafət xanım Seyidovaya anası **Tamella xanımın** vəfatından kədərlindiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İnsan anatomiyası və terminalogiya kafedrasının kollektivi baş müəllim Gülnarə xanıma atası **Elxan müəllimin** vəfatından kədərlindiyini bildirir və dərin hüznlə başsağlığı verir.

II uşaq xəstəlikləri kafedrasının əməkdaşları t.e.d., iş yoldaşları Hüseynağa Qurbanova əzizi **Elxanın** vaxtsız vəfatından kədərlindiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın laborantı Rüsxarə Hacıyevaya babası **Əbdülrəhman Rüstəmovun** vəfatından kədərlindiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları ATU-nun kadrlar üzrə mütəxəssisi Elmira Qəmbərovaya həyat yoldaşı **Natiq Qəmbərovun** vəfatından kədərlindiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılıq fakültəsinin dekanlığı, Biofiziki və bioüzvi kimya, Tibbi və bioloji fizika kafedralarının əməkdaşları Biofiziki və bioüzvi kimya kafedrasının baş müəllimi **Amalya xanım Bağişevanın** vəfatından kədərlindiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Ümumi cərrahlıq kafedrasının əməkdaşları kafedranın professoru Rüstəm Məmmədova atası **Əli Məmmədovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Histologiya, embriologiya və sitologiya kafedrasının əməkdaşları kafedraının dosenti **Elmira Kərimovanın** vəfatından kədərlindiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet “Təbib” qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^{c}$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tibbqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200